**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA QİDA TƏHLÜKƏSİZLİYİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Arzu Böyükağa qızı İbrahimli Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Bakı Dövlət Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Eldar Allahyar oğlu Quliyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Əkimə Əmir qızı Əhmədova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Adil Şeyruz oğlu Hüseynov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: ________________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ________________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ________________ iqtisad elmləri doktoru, dosent
**Elşən Əli oğlu İbrahimli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və öyrənilmə dərəcəsi.** Bütövlükdə etibarlı qida təhlükəsizliyi məsələləri hər bir ayrı-ayrı ölkənin iqtisadi təhlükəsizliyinin ən mühüm tərkib hissəsi olmaqla, müvafiq hökumətlərin və dünya ictimaiyyətinin daim diqqət mərkəzində olmuşdur.

Müasir dünyada problem və təhdidlərin təhlükəsinin miqyasının dərk edilməsini tələb edən qlobal transformasiyalar və proseslər ildən-ilə güclənir. Dünyada hələ də 2008-ci ilin sonunda başlayan və nəticəsində maliyyə və investisiya axınlarının hərəkətini səngidən maliyyə böhranının mənfi təsiri davam edir. Bu proseslər minilliyin problemlərinin, o cümlədən yoxsulluğun və aclığın səviyyəsinin azaldılması problemlərinin həllini çətinləşdirib. Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına görə, hər il dünyada təxminən 800 milyon insan qida çatışmazlığından əziyyət çəkir, 600 milyondan çox insan keyfiyyətsiz qida məhsullarından zəhərlənir. Bundan əlavə, hər il 420,000 insan qida zəhərlənməsindən ölür və beləliklə, qida təhlükəsizliyi məsələləri yığılıb qalmış problemlərin və həll olunmamış məsələlərin həlli istiqamətində əməkdaşlığın gücləndirilməsini şərtləndirir. Qida təhlükəsizliyi standartlarına və tələblərinə uyğunluq sahəsində tamamilə yeni, daha mütəşəkkil, əsaslandırılmış yanaşmalar, metodoloji inkişaf tələb olunur. Ən mühüm şərt kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, bütün növ ərzaq məhsullarının saxlanması, təhvil verilməsi, yığılması və son istehlakçılara çatdırılması mərhələlərini əhatə edən qida təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı bütün dövriyyə proseslərinin maksimum optimallaşdırılmasıdır.

Daha önəmli məsələ əsas ərzaq məhsulları və əsas qida növləri ilə fasiləsiz təchizatın təmin edilməsinin çətinliyidir. Vətəndaş qarşıdurmaları, müharibələr şəraitində, xüsusən də Rusiya-Ukrayna müharibəsi kontekstində bir çox dövlətlərin idxal etdiyi buğda kimi strateji məhsulun yetişdirilməsi və dünya bazarlarına çıxarılması ilə bağlı vəziyyət daha da gərginləşib. Bundan əlavə, son zamanlar şəhər və rayon mərkəzlərində, iri yaşayış məntəqələrində, dünyanın müxtəlif yerlərində "fast food" modelinə uyğun tez hazır olan

yeməklər və ya köşklərdə və digər aşağı ixtisaslı iaşə obyektlərində ayaq-üstü yemək dəb halını alıb. Təəssüf ki, bu növ yeməklərin hazırlanması üçün xammal keyfiyyət göstəricilərinin tələblərinə cavab vermir, bəzən mənşəyi məlum olmayan ət kompoziti və ya keyfiyyətsiz ətdən hazırlanır.

Son onilliklər ərzində Azərbaycanda beynəlxalq təcrübə əsasında ardıcıl tədbirlər həyata keçirilib, qida təhlükəsizliyi sisteminin yaradılması və inkişafı istiqamətində dövlət siyasəti formalaşdırılıb. 1999-cu il noyabrın 18-də ölkədə ərzaq məhsulları bazarının idarə edilməsi və keyfiyyətinə nəzarətin, istehsalının və təşkilinin hüquqi məsələlərini tənzimləyən "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. 2001-2010-cu illərdə Azərbaycan Respublikası Prezidentinin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı" həyata keçirilmişdir. Daha sonra Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" həyata keçirilmişdir. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanına əsasən məhsuldarlığın artırılması, keyfiyyətli ərzaq məhsullarının təkmilləşdirilməsi və əsas növ ərzaq məhsullarının mövcudluğunun təmin edilməsi, habelə ən mühüm ərzaq məhsulları növləri üzrə idxalı əvəzetmə səviyyəsinin yüksəldilməsi və bu sənayenin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılmış, habelə Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının bu qurumun strukturu və nizamnaməsi təsdiq edilmişdir. Həmçinin, publik hüquqi şəxs statusu ilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu da yaradılıb.

Eyni zamanda, ölkənin qida təhlükəsizliyi üzrə mərkəzi dövlət orqanının Nizamnaməsi təkmilləşdirilmiş və əlavələr edilmiş və beləliklə, ölkədə bütün ərzaq tədarükü zəncirində mərkəzləşdirilmiş

nəzarət gücləndirilmişdir. Normativ-hüquqi aktların hazırlanması, qida məhsullarının təhlükəsizliyi və keyfiyyət göstəriciləri üzrə laboratoriya analizlərinin aparılması üzrə ixtisaslaşmalı olan Qida Təhlükəsizliyi İnstitutunun ən mühüm fəaliyyət istiqamətləri müəyyən edilib. Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2019-cu il tarixli Sərəncamı ilə "2019-2025-ci illərdə Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib. Bu proqramın əsas məqsədi qida istehlakçılarının sağlamlığının qorunması və hüquqlarının müdafiəsi sahəsində mövcud mexanizmlərin və qida təhlükəsizliyinə nəzarət sistemlərinin təkmilləşdirilməsi üçün zəmin yaratmaqdır. 2022-ci ildə ölkənin parlamenti - Milli Məclisdə qida təhlükəsizliyi sahəsində yeni qanun - "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu müzakirə edilib və yaxın zamanda sözügedən qanunun qəbul edilməsi gözlənilir.

2030-cu il üçün nəzərdə tutulmuş Milli prioritetlər və 2020-2036-ci illər üzrə sosial-iqtisadi inkişaf strategiyalara əsaslanaraq və işğaldan azad edilmiş ərazilərin bərpası və dirçəldilməsi üzrə konseptual istiqamətlərə uyğun olaraq yeni reallıqlar yaradılıb və təbii ki, ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə dövlət siyasətinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi imkanlarının və perspektivlərinin dərindən öyrənilməsi tələb olunur. Nəzarət mexanizmlərini, standartları gücləndirmək, qida tədarükü zəncirinin izlənilməsi qaydalarını və prosedurlarını inkişaf etdirmək və bununla da Azərbaycanda ərzaq təhlükəsizliyi mexanizmlərini maksimum dərəcədə təkmilləşdirmək lazımdır.

Yuxarıda göstərilən amillər dissertasiya işinin mövzusunun aktuallığını əks etdirən nəzəri-metodoloji məsələlərin, xüsusiyyətlərin və Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsinin ən mühüm prinsiplərinin fundamental öyrənilməsini zəruri edir.

Qeyd edək ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, əsas növ ərzaq məhsullarının istehsalının xammal bazalarının inkişaf etdirilməsi, kənd təsərrüfatının və ümumilikdə aqrar sektorun səmərəliliyinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin gücləndirilməsinin

əsas problemləri və nəzəri və metodoloji əsaslarına dair məsələlər, qida tədarük zəncirinin idarə edilməsi və nəzarəti yerli və xarici alimlərin elmi məqalələrində öz əksini tapmışdır. Onların arasında bir sıra Azərbaycan alim və tədqiqatçılarını - Z.Ə.Səmədzadəni, E.Ə.Quliyevi, E.R.İbrahimovu, B.X.Ataşovu, Q.A.Xəlilovu, V.Q.Abbasovu, A.F.Abbasovu, İ.Q.Alıyevi, İ.Q.İbrahimovu, M.C.Hüseynovu, R.Z.Hüseynovu və başqalarını qeyd etmək olar.

Bundan başqa, dünyanın bir sıra alim və tədqiqatçılarının əsərlərində ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, kənd təsərrüfatı və aqrar-sənaye məhsulları istehsalının inkişafı, ölkənin ərzaq təhlükəsizliyi sisteminin gücləndirilməsinin nəzəri və metodoloji aspektləri nəzərdən keçirilir. T.R.Maltus, M.T.Sadler, M.Gibson, K.J.Fereira, V.M.Kantere, V.A.Matisson, E.İ.Marqulis, S.G.Afanasiev, B.V.Baduev, D.A.Edelev, Yu.V.Zomitev, P.N.Lomakin, Q.R.Taişeva və başqalarını misal göstərmək olar.

Qeyd etmək lazımdır ki, COVİD-19 pandemiyasının mənfi təsirlərinə və işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi ilə bağlı yeni reallıqlara uyğun olaraq qlobal təhlükələrin artması kontekstində və bütövlükdə, yüksək keyfiyyətli ərzaq məhsullarının strukturunun genişləndirilməsinin və həcminin artırılmasının, ölkə əhalisi üçün sərfəli və keyfiyyətli ərzaq məhsullarının istehsalının təmin edilməsi məqsədilə problem və çağırışların dərindən öyrənilməsi tələb olunur. Bütün bu amillər qısa və uzunmüddətli perspektivdə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi yollarının işlənib hazırlanmasını tələb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qida sənayesi və onun qida xammal komponentlərinin və ərzaq məhsullarının istehsalı və satışı ilə bağlı olan subyektləridir.

Tədqiqatın predmeti müasir şəraitdə və yaxın gələcəkdə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi üsulları və qanunauyğunluqlarıdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair nəzəri və metodoloji

yanaşmaların fundamental tədqiqi və bu əsasda müvafiq elmi-praktiki tövsiyə və təkliflərin işlənib hazırlanmasıdır. Bununla əlaqədar olaraq, dissertasiya işi çərçivəsində müəllif aşağıdakı vəzifələri nəzərdən keçirmişdir:

- qlobal transformasiyalar kontekstində qida təhlükəsizliyinin nəzəri məsələlərinin öyrənilməsi;
- hazırkı şəraitdə qida təhlükəsizliyi mexanizmlərinin təkmilləşdirilməsinin metodoloji xüsusiyyətlərinin müəyyən edilməsi;
- qida təhlükəsizliyinin təmin edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi;
- Azərbaycanda qida sektorunun strukturunun real vəziyyətinin təhlili;
- ölkədə mövcud qida zəncirinin və ümumilikdə qida təhlükəsizliyi sisteminin səmərəliliyinin təhlili və qiymətləndirilməsi;
- ölkədə qida təhlükəsizliyi mexanizmlərinin təkmilləşdirilməsi üçün yerli istehsalın imkanlarının qiymətləndirilməsi;
- qida təhlükəsizliyi sahəsində mövcud qanunvericilik bazasının beynəlxalq standartlara uyğunluğunun öyrənilməsi;
- əhalinin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin edilməsi və onun strukturunun genişləndirilməsi prioritetlərinin müəyyən edilməsi;
- yeni çağırışlar kontekstində Azərbaycanda qida təhlükəsizliyi mexanizmlərinin təkmilləşdirilməsinin optimal yollarının müəyyən edilməsi və əsaslandırılması, müvafiq tövsiyə və təkliflərin hazırlanması və s.

**Tədqiqat üsulları.** Tədqiqatın metodoloji bazası dünyanın müxtəlif tədqiqatçı-alimlərinin, o cümlədən azərbaycanlı alimlərin Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi problemlərinə və məsələlərinə dair əsərlərindən formalaşdırılmışdır. Bu məqsədlə tədqiqat zamanı əsasən təhlil, sintez, müqayisə, təsnifat, qiymətləndirmə, ümumiləşdirmə kimi iqtisadi tədqiqat metodlarından istifadə edilməklə yanaşı, müəllif yanaşması da tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın strukturuna əsasən dissertasiya işinin aşağıdakı müddəaları müdafiəyə təqdim olunur:

- qlobal transformasiya şəraitində qısa və uzunmüddətli perspektivdə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün müasir nəzəri-metodoloji baxışların və yanaşmaların formalaşdırılmasına ciddi ehtiyac yaranmışdır;

- qabaqcıl dünya təcrübəsinin dərindən öyrənilməsi və ümumiləşdirilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün onun tətbiqinin adekvatlığını müəyyən etmək lazımdır;

- ölkənin qida sənayesi strukturunun mövcud vəziyyətinin və onun yeni reallıqlara uyğunluğunun obyektiv təhlilinə ehtiyac var;

- qida zəncirinin təhlükəsizliyini artırmaq və onun səmərəliliyini təmin etmək üçün mövcud problemlərin dərindən nəzərdən keçirilməsi tələb olunur;

- ən mühüm mərhələ müasir şəraitdə ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yerli istehsalın potensialının qiymətləndirilməsidir;

- qida təhlükəsizliyi sahəsində qanunvericilik bazasının beynəlxalq standartlara uyğunluğu kontekstində daha intensiv təkmilləşdirilməsinə ehtiyac var;

- qida zəhərlənmələrinin səviyyəsini və ağır xəstəliklərin mənbələrini minimuma endirmək məqsədilə əhalinin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin edilməsinin daha səmərəli mexanizmlərinin formalaşdırılmasına üstünlük verilir;

- yeni çağırışlar kontekstində Azərbaycanın qida təhlükəsizliyi mexanizmlərinin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsi ilə yanaşı müvafiq tövsiyə və təkliflərin hazırlanması da zəruridir.

**Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

– müasir dünyada qlobal dəyişikliklər şəraitində əsas amillər əsasında qida təhlükəsizliyinin təmin edilməsinə dair müasir nəzəri və metodoloji yanaşmaların alqoritminin əsaslandırılaraq işlənib hazırlanması;

– qida təhlükəsizliyinin əsas göstəricilərinin fundamental təhlili və müqayisəli xarakteristikaları əsasında bütövlükdə qida zəncirinin səmərəliliyini və təhlükəsizliyini təmin etmək üçün dövlət

tənzimləmə və nəzarət sisteminin dərindən təkmilləşdirilməsinə ehtiyac olduğu sübut edilmişdir;

– qida dövriyyəsi təhlükəsizliyinin səmərəliliyinin müasir texnologiyalar əsasında artırılması, ərzaq məhsullarının bazarı və qida məhsullarının xüsusiyyətləri nəzərə alınmaqla qida təhlükəsizliyi zənciri üzrə mövcud mexanizm və vasitələrin maksimum dərəcədə təkmilləşdirilməsi üzrə sistemli tədbirlərin səmərəliliyinin gücləndirilməsi zərurəti və konseptual bazası əsaslandırılmışdır;

– Azərbaycanda ərzaq məhsullarının həcminin və strukturunun adekvatlığını, onların ehtiyatlarını, məhsullar, qida təhlükəsizliyi zənciri üzrə nəzarət mexanizmlərinin səmərəliliyi və ölkədə qidaya nəzarət, ən mühüm ərzaq növlərinin fiziki və maliyyə imkanlarını nəzərə almaqla, Azərbaycanda ərzaq təhlükəsizliyinin əsas mexanizm və prinsiplərinin təkmilləşdirilməsi üçün göstəricilər sistemi hazırlanmış və təklif edilmişdir;

– bütövlükdə ölkədə qida təhlükəsizliyinin təmin edilməsi sahəsində mövcud mexanizm və vasitələrin optimallaşdırılması üçün tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinin, qida təhlükəsizliyi sahəsində dövlət siyasətinin qanunvericilik bazasının, təşkilati, iqtisadi və institusional əsaslarının təkmilləşdirilməsinin əhəmiyyəti əsaslandırılmışdır;

– iaşə obyektlərinə və pərakəndə ticarət şəbəkələrinə keyfiyyətsiz və toksik qidaların və hazır qida məhsullarının axını nəticəsində əhalinin düzgün qidalanmasının təmin edilməsi və ərzaq təhlükəsizliyi sistemində yaranan nasazlığın qarşısının alınması, artan ərzaq təhlükələri şəraitində ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsində yerli istehsalın potensialının obyektiv qiymətləndirilməsi üçün alqoritm əsaslandırılmış və işlənib hazırlanmışdır;

– elmi arqumentlər əsasında əhalinin həssas təbəqəsini əsas növ ərzaq məhsulları ilə təmin etmək, eyni zamanda istehlak bazarında əsas növ ərzaq məhsullarının qiymətlərinin süni şişirdilməsinin qarşısının alınması üçün ardıcıl tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsinin zərurəti əsaslandırılır;

– qida təhlükəsizliyi zəncirinin əsas mexanizmlərinin səmərəliliyini təmin etmək üçün standartların optimallığının və tətbiq olunan qaydaların, prosedurların və təlimatların adekvatlığının

artırılması yolu ilə mövcud qida təhlükəsizliyi sistemlərinin maksimum təkmilləşdirilməsinin strateji əhəmiyyəti əsaslandırılır;

– ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə mövcud mexanizmlərin təkmilləşdirilməsi və strateji növ ərzaq məhsulları və ərzaq məhsullarından asılılıq səviyyəsinin azaldılması məqsədilə "Azərbaycan Respublikasında 2023-2030-cu illərdə ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı"nın hazırlanıb həyata keçirilməsinin zəruriliyi əsaslandırılır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin məzmunu, əsas müddəaları və əldə edilən nəticələr ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə kompleks tədbirlərin, dövlət proqramlarının və strategiyalarının işlənib hazırlanmasında və həyata keçirilməsində ölkənin qida sənayesi və ərzaq təhlükəsizliyi sahəsində alimlərin və mütəxəssislərin xüsusi marağına səbəb ola bilər. Dissertasiya işinin materiallarından dərsliklərin, dərs vəsaitlərinin, o cümlədən "Qida təhlükəsizliyinin əsasları", "Ərzaq təhlükəsizliyinin əsasları", "Qida təhlükəsizliyi sisteminin idarə edilməsi", və s. fənlər üzrə tədris materiallarının hazırlanmasında istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqatçının dissertasiya işi üzrə 6 məqalə, 5 tezis olmaqla, ümumilikdə 11 elmi iş dərc edilmişdir. Bunlardan 1 məqalə və 1 tezis xaricdə çap olunub. Araşdırmanın nəticələri "Актуальные вопросы международного опыта по обеспечению пищевой безопасности" (Bakı, 2019), "Проблемы повышения эффективности системы пищевой безопасности страны" (Bakı, 2019), "Проблемы и перспективы усиления уровня пищевой безопасности в Азербайджане" (Москва, 2020), "Обеспечение эффективности и безопасности пищевой цепи в постпандемическом периоде" (Bakı, 2020), "Современные проблемы усиления пищевой безопасности в Азербайджане" (Bakı, 2021), "Основные направления усиления пищевой безопасности в контексте стратегических дорожных карт Азербайджана" (Bakı, 2022). mövzusunda məqalələr; "Стратегические аспекты усиления пищевой безопасности в Азербайджане" (Bakı, 2019), "Важность обеспечения пищевой

безопасности в развитии человеческого капитала в современных условиях" (Sumqayıt, 2019), "Методологические особенности и механизмы управления системы пищевой безопасности страны" (Сумгаит, 2020), "Усиление инфраструктуры по обеспечению экологическо чистой пищевой продукции в условиях пандемии" (Sumqayıt, 2020), "Анализ и оценка уровня эффективности пищевой безопасности в Азербайджане" (Москва, 2021) mövzusunda tezislərdə təqdim olunur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universiteti.

**Dissertasiyanın ümumi həcmi, onun ayrı-ayrı struktur bölmələrinin simvollarla həcmi nəzərə alınmaqla.** Dissertasiya işinin ümumi həcmi (258399 simvol) təşkil edir, o cümlədən, giriş (15501 simvol), I fəsil (83587 simvol), II fəsil (56901 simvol), III fəsil (59865 simvol), nəticə (6813 simvol) və biblioqrafiya (21448 simvol) daxil olmaqla. Dissertasiya işinin həcmi, cədvəllər, qrafiklər, ədəbiyyat siyahısı istisna olmaqla, 222667 işarə təşkil edir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin girişində** problemin aktuallığı və öyrənilmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, müdafiəyə təqdim olunan əsas müddəaların metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tədqiqatın nəticələrinin tətbiqi təqdim olunmuşdur.

**"Ərzaq təhlükəsizliyinin nəzəri və metodoloji əsasları" adlanan birinci fəsildə** qlobal dəyişikliklər kontekstində ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində nəzəri yanaşmalar, ərzaq təhlükəsizliyi mexanizmlərinin təkmilləşdirilməsinin metodoloji xüsusiyyətləri, "ərzaq təhlükəsizliyi" və "qida təhlükəsizliyi" anlayışları arasındakı qarşılıqlı əlaqələr və fərqlər və müasir şəraitdə qida təhlükəsizliyinin təmin edilməsində beynəlxalq təcrübə nəzərdən keçirilir.

Son onilliklər ərzində qlobal dünyada mühüm dəyişikliklər baş verib, yeni problemlər yaranır, insanların sağlamlığının təmin edilməsi və qorunması üzrə ənənəvi standartların, qaydaların və

prosedurların qorunması çətinləşir. Xüsusilə qlobal iqlim sarsıntıları, fors-major trayektoriyaların genişlənməsi, dəhşətli zəlzələlər və sunamilər, quraqlıq, sürüşmə, daşqınlar, yanğınlar və ümumilikdə iqlim dəyişikliyi yeni vəziyyətləri əsaslandırıb və yeni qlobal çağırışlar gündəmə gəlib. Onların arasında ən aktual və qlobal problemlərdən biri insanların sağlamlığının qorunmasının gücləndirilməsi üçün mürəkkəb və eyni zamanda təhlükəli problem olan qida təhlükəsizliyinin təmin edilməsi hesab edilir. Qida təhlükəsizliyinin təmin edilməsi qida məhsullarının əsas növlərinin yetişdirilməsi, saxlanması, daşınması, emalı və istehsalçılardan son istehlakçılara çatdırılmasının bütün dövrünün fundamental tədqiqatını və öyrənilməsini müəyyən edir. Bu dövrədə vətəndaşların sağlamlığı və insan kapitalının, bütövlükdə cəmiyyətin və dövlətin sabit inkişafının daha çox asılı olduğu qida məhsullarının tərkibi, rejimi və kaloriliyinə dair yüzlərlə standart, reqlament, prosedur və qaydalar, qəbul edilmiş qanunvericilik aktları ətraflı təsvir edilir və təsdiqlənir. Ərzaq məhsullarının becərilməsi, emalı və istifadəsində texnoloji prosedurların və digər standartların pozulması sistemli böhranlar yaradır, təhlükəli xəstəliklərin yayılmasına səbəb olur, cəmiyyətin sabit inkişafını iflic edir və bu sahədə qida təhlükəsizliyi mexanizmlərinin, dövlət və digər tənzimləyici orqanların səmərəliliyi ilə bağlı çoxsaylı suallar doğurur.

Demoqrafik vəziyyətlə əlaqədar XVIII əsrdən başlayaraq yüksək keyfiyyətli ərzaq məhsulları ilə təminat məsələləri ciddi narahatlıq doğurmuş və bu arada əhalinin ən mühüm ərzaq məhsulları növləri ilə təmin edilməsi və əhalinin keyfiyyətli qidalanması ilə bağlı anlayışlar formalaşmışdır. Belə ki, ingilis alimi T.R.Maltusun fikrincə, dünya əhalisinin artması ilə hər bir sonrakı şəxslə adambaşına düşən torpaq ehtiyatları azalacaq ki, bu da öz növbəsində bilavasitə xəstəlik və aclığın artmasına gətirib çıxaracaq, həm də təbii olaraq əhalinin artımını məhdudlaşdıracaq[1]. T. R. Maltus 1803-cü ildə gələcək nəsillər üçün qida probleminin qarşısını almaq və bütün dünyada bu sahədə sabitliyi qorumaq üçün dünyada doğum

---

[1]Malthus, T.R. An Essay on the Principle of Populatio. London, Printed for J. Johnson, in St. Paul´schurch-yard, 1798, c. 71.

səviyyəsinin tənzimlənməsi təklifini irəli sürdü[2]. Alimin nəzəriyyəsi müsbət cavab aldı və qlobal qida problemlərinin tədqiqi sahəsində bir çox alim tərəfindən dəstəkləndi, onun bəyanatlarına əsaslanan müasir nəzəriyyə isə neo-Maltusçuluq adlanır. Lakin bu cərəyan alimlər tərəfindən həm dəstəkləndi, həm də tənqid edildi. Məsələn, T.R.Maltusun əleyhdarlarından biri M.T.Sadler idi və o hesab edirdi ki, əhalinin sayının artması ilə onun məhsuldarlığı azaldığından artım dünya əhalisinin sıxlığı ilə tərs mütənasibdir. M.T.Sadler qeyd edirdi ki, dünya əhalisinin artması ilə əmək şəraiti yaxşılaşır, daha çox müavinət əldə edilir və müvafiq olaraq hər bir şəxsin fərdi ərzaq məhsulları ilə təminatı yaxşılaşır[3]. Biz hesab edirik ki, son 200 ildə qlobal ərzaq problemlərinin həlli və xüsusilə də bu sahədə sabitliyin təmin edilməsi məsələləri dünyada daima baş verən təbiət və iqlim problemləri və müharibələr səbəbindən böyük çətinliklərlə müşayiət olunub. Birinci və İkinci Dünya müharibələri xüsusilə dağıdıcı oldu. Bu müharibələrin nəticəsində on milyonlarla insan tələf oldu və demək olar ki, dünyanın əksər ölkələrində uzun illər boyu aclıq və qida çatışmazlığı hökm sürdü və milyonlarla insan yaşamaq üçün lazım olan minimum qida ehtiyacını tapmaq ümidi ilə öldü.

Hazırda qloballaşma mühitində qida məhsullarının səmərəliliyinin və təhlükəsizliyinin təmin edilməsi məsələləri strateji əhəmiyyət kəsb edir və müasir dünyada əhalini keyfiyyətli məhsullarla təmin etmək ildən-ilə çətinləşir ki, bu da mühüm qida təhlükəsizliyi meyarları üzrə standartlara uyğunluğu tələb edir. Belə ki, beynəlxalq konvensiya və razılaşmalara əsasən, dünyada doğulan hər bir insanın kifayət qədər təhlükəsiz qidadan istifadə etmək hüququ var. Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi problemləri qəbul edilən qidaların təhlükəsizliyi ilə sıx bağlıdır[4]. Qeyd etmək lazımdır ki, bu amillər və hallar COVID-19 koronavirus pandemiyası kontekstində daha kəskin xarakter daşıyır. Təsadüfi deyil ki, ÜST-ün mütəxəssisləri Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd

---

[2] Malthus, T.R. Population: The First Essay. University of Michigan Press. 1959, c. 63.

[3] Sadler, M.Th. The Law of Population: A Treatise, in Six Books, 2015, c. 194.

[4]Агеева, Н.М. Обеспечение качества и безопасности продукции – важнейшая государственная задача / Н.М. Агеева, Т.И. Гугучкина, И.В. Оселедцева // Пищевая промышленность. – 2010. – № 12, c. 51.

Təsərrüfatı Təşkilatı ilə birlikdə "COVID-19 və qida təhlükəsizliyi: milli qida təhlükəsizliyinə nəzarət sistemlərinin fəaliyyətinə cavabdeh olan səlahiyyətli orqanlar üçün təlimat" adlı müvəqqəti tövsiyələr hazırlamışlar[5].

Mövcud şəraitdə ölkə əhalisinin təhlükəsiz qida məhsulları ilə təmin olunmasına xüsusi diqqət yetirmək və onlara zərərli maddələrin daxil olmasını istisna etmək lazımdır. Bununla bağlı Ümumdünya Səhiyyə Təşkilatı qida təhlükəsizliyi sahəsində Kodeks Alimentarius standartlarını təsdiqləyib[6]. Təəssüf ki, indiyədək həyata keçirilən tədbirlər, standartlar, prinsiplər və meyarlar insanların həyatının qorunması və sağlamlığının yaxşılaşdırılması sahəsində strateji əhəmiyyət kəsb edən qida təhlükəsizliyini tam təmin edə bilmir.

Tədqiqat materialları qlobal dəyişikliklər kontekstində qida təhlükəsizliyinin təmin edilməsinə müasir nəzəri yanaşmaları sxematikləşdirməyə imkan verir ki, bunlara aşağıdakılar daxil ola bilər və onlar Şəkil 1-dəki blok-sxemində öz əksini tapmışdır.

Şəkil 1-dən göründüyü kimi, ərzaq təhlükəsizliyinin təmin edilməsinə nəzəri yanaşmalar qlobal transformasiyaların və qlobal təhlükələrin artmasının cari təsirlərinin maksimum qiymətləndirilməsini və nəzərə alınmasını tələb edir.

Son illər Azərbaycanda məqsədyönlü fəaliyyət və elmi işlər intensivləşdirilib, o cümlədən ərzaq təhlükəsizliyinin gücləndirilməsi sahəsində dövlət siyasəti gücləndirilib. E.A.Quliyev və B.X.Ataşov qida təhlükəsizliyi məsələləri ilə bağlı ardıcıl tədqiqatlar aparmışlar. Belə ki, professor E.Ə.Quliyev qeyd edir ki: *"Ölkədə səmərəli formalaşdırılmış vergi sistemi, eləcə də düzgün seçilmiş fiskal mexanizmlər həm də qida sənayesinin inkişafına stimullaşdırıcı təkan verə və nəticə etibarı ilə ərzaq təhlükəsizliyinin səviyyəsinin*

---

[5] Ковид-19 и безопасность пищевых продуктов: руководство для компетентных органов, ответственных за работу национальных систем контроля безопасности пищевых продуктов. 22 апреля 2020 г. - [Электронный ресурс] / URL: https://apps.who.int/iris/bitstream/handle/10665/331842/WHO-2019-nCoV-Food_Safety_authorities-2020.1- rus.pdf? sequence=14&isAllowed=y., c. 4.

[6] Кейджи, Ф. Безопасность пищевых продуктов в глобализованном мире. [Электронный ресурс] / URL: http://www.who.int., c. 7.




**Şəkil 1. Qlobal dəyişikliklər kontekstində qida təhlükəsizliyini təmin etmək üçün müasir nəzəri yanaşmaların blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

*yüksəldilməsinə müsbət təsir göstərə bilər"*[7]. Biz də öz növbəmizdə hesab edirik ki, qida sənayesinin inkişafını mümkün və adekvat yollarla stimullaşdırmaq və bununla da keyfiyyətli qida məhsullarının istehsalı üçün daha əlverişli şərait yaratmaq və eyni zamanda bütün qida təhlükəsizliyi dövrünün təhlükəsizliyini təmin etmək lazımdır. Bundan əlavə, Əməkdar elm xadimi, professor B.X.Ataşov vurğulayır ki: *"Ərzaq təhlükəsizliyi yalnız xammal və ərzaq istehsalının dinamikliyi, innovativ inkişaf və sosial fenomen kimi yoxsulluğun aradan qaldırılması şəraitində mümkündür"*.[8] Həqiqətən də, ölkə əhalisinin bütün təbəqələri üçün əsas ərzaq növlərinin fiziki və praktiki əlçatanlığını təmin etmək və bununla da ölkədə ərzaq təhlükəsizliyinin ən mühüm komponentlərini gücləndirmək lazımdır.

Daha sonra, diqqəti FAO metodologiyasına uyğun olaraq, ölkənin qida təhlükəsizliyi sisteminin təşkili və inkişafının işlənib hazırlanması və həyata keçirilməsi üçün ən çox metodoloji əsasda müəyyən edilən ən vacib qida təhlükəsizliyi göstəricilərinə yönəltmək istərdik (bax. Şəkil 2.)

